**UOT 376**

***Elmira Mahmud qızı Kərimova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
https://orcid.orq/0000-0003-1378-8472

# ENNEAQRAM MODELİNİN DÜNYADA İSTİFADƏSİ TƏCRÜBƏSİNDƏN

***Эльмира Махмуд гызы Керимова***
*доктор философии по педагогике,*
*ведущий научный сотрудник Института Образования*
*Республики Азербайджан*

# ИЗ ОПЫТА ИСПОЛЬЗОВАНИЯ МОДЕЛИ ЭННЕАГРАММЫ В МИРЕ

***Elmira Mahmud Karimova***
*doctor of philosophy in pedagogy,*
*leadinq scientific worker at the Institute of Education*
*of the Repablic of Azerbayjan*

# FROM THE EXPERIENCE OF USING THE ENNEAGRAM MODEL IN THE WORLD

**Xülasə.** Bu gün Enneagram Kopenhagendən Keyptauna, Tokiodan Mexikoya qədər bütün planetdə irəliləyir, biznes təhsilində, kouçinq və psixoterapiyada istifadə olunur. Enneagram insanın şəxsi transformasiyasına və inkişafına yönəlmiş dərin, şüuraltı motivasiyaya əsaslanan modeldir. O, insan şəxsiyyətinin strukturunu, uyğunlaşma strategiyalarını və müdafiə mexanizmlərini öyrənir. Bu modelə görə, hər bir insanın dəqiq müəyyən edilmiş şəxsiyyət quruluşu, özünəməxsus reaksiyaları və bir növ "proqramlaşdırılmış" davranışı var və buna görə də o, onda açıq-aydın özünü büruzə verən dominant şəxsiyyət növünə – Enneatipə aiddir.

***Açar sözlər:*** *Enneaqram, Enneatip, şəxsi transformasiya, peşə seçimi, karyera, şəxsiyyət strukturu*

**Резюме:** Сегодня модель Эннеаграммы распространена от Копенгагена до Кейптауна, от Токио до Мексики и используется в бизнес-образовании, коучинге и психотерапии. Эннеаграмма представляет собой интегральную модель глубокой, подсознательной мотивации человека к личному преобразованию и развитию. Она изучает структуру личности человека, стратегии адаптации и защитные механизмы. Согласно этой модели, каждый человек обладает четко выраженной структурой личности, уникальными реакциями и своеобразным «запрограммированным» поведением, и поэтому он принадлежит к тому Эннеатипу личности, который в нем ярко проявляется, т.е. домирирует.

***Ключевые слова:*** *Эннеаграмма, Эннеатип, трансформация личности, выбор профессии, карьера, структура личности*

**Summary**. Today, the Enneagram model has spread from Copenhagen to Cape Town, from Tokyo to Mexico, and is used in business education, coaching, and psychotherapy. The Enneagram is an integral model of a person's deep, subconscious motivation for personal transformation and development. It studies the structure of a person's personality, adaptation strategies and defense mechanisms. According to this model, each person has a clearly defined personality structure, unique reactions and a kind of "programmed" behavior, and therefore he belongs to that Enneatype of personality, which is clearly manifested in him, i.e. dominates.

***Key words:*** *Enneagram, Enneatype, personality transformation, profession choice, career, personality structure*

Enneagram sözü yunanca ennea (doqquz) və qram (rəqəm) sözlərindən irəli gəlir və həndəsi fiqur kimi təsvir olunur. Bu fiqur insan təbiətinin və xarakterinin doqquz əsas şəxsiyyət tipini və onların münasibətlərini təsvir edir. Enneagram qədim mənəvi müdrikliyə əsaslanan müasir psixologiyanın tərtibatıdır.

Enneaqramın tarixi mənşəyini izləmək çətindir: çox güman ki, sufi ənənəsindən qaynaqlanan dairənin simvolu 1920-ci ildə Fransada İnsanın Harmonik İnkişafı İnstitutu adlı mənəvi inkişaf məktəbinin əsasını qoyan müəllim – ezoterik Georgi Qurdjiyevin (1866, Gümri – 1949, Fransa) təlimlərində istifadə edilmişdir. Bu məktəbdə o, hər kəsin gündəlik həyatda və kainatda özünü və özünün yerini dərk etməyi öyrədirdi. Qərb dünyasını da Enneaqramla tanış edən məhz G. Qurdjiyev olmuşdu. O, Enneaqramın müəllifi olmadığını, lakin bu barədə hansısa qədim və sirli mənbədən məlumat aldığını vurğulayırdı. G. Qurdjievin fikrincə, Enneaqram kainatı idarə edən böyük kosmik qanunların şifrələndiyi müqəddəs universal simvoldur. XX əsrin əvvəllərində G. Qurdjiyev Sankt-Peterburqa, inqilabdan sonra isə Fransaya köçür. 20 illik səyahətləri ərzində o, Türkiyədə, İtaliyada, İsveçrədə, Yunanıstanda, Misirdə, Sudanda, Məkkədə, Orta Asiyada, Əfqanıstanda, Tibetdə, Sibirdə və s. olub. O, Bakını da ziyarət edib. 1949-cu ildə Fransada vəfat etmişdir.

Şəxsiyyətin Enneagramı müasir formada XX əsrin 70-ci illərində boliviyalı antropoloq və filosof O. İçazo və həmçinin, Amerikalı (əslən Çilidəndir) psixiatr və geştalt-psixoloq K. Naranxo tərəfindən hazırlanmışdır. Şəxsiyyətin Enneagramı çərçivəsində uzun illər işləməsi K. Naranxonu pedaqoqlar, psixoterapevtlər və bir çox digər kateqoriyalar tərəfindən qəbul edilən ixtisaslaşdırılmış SAT kursu yaratmağa vadar etdi. Bu kurslar SAT testi (Scholastic Assessment Test, ilk dəfə 1926-cı ildə istifadəyə verilmişdir) əsasında yaradılmışdır və hazırda da ABŞ universitetlərində bakalavr proqramlarına qəbul üçün, digər mütəxəssislər və nazirliklərin, o cümlədən, təhsil islahatları proqramları çərçivəsində istifadə edilən standartlaşdırılmış testdir. Həmin vaxtdan bal sistemində və test növlərində dəyişikliklər olub. Müxtəlif vaxtlarda Scholastic Assessment Test mənasını verən abbreviatura indi deşifrə edilmədən bir müstəqil ad kimi – SAT kimi istifadə olunur.

Son onilliklər ərzində Enneagram modeli seminarlar və təlimlər rəhbərləri və kitab müəllifləri (Helen Palmer, Don Riso, Rass Hadson, Hamid Ali, R. Tallon, J. Lapid-Bogda, H. Makani, A. Subuti və b.) tərəfindən daha da inkişaf etdirilmişdir, ona müasir psixologiya ideyaları inteqrasiya edilmişdir. Burada müasir rus müəlliflərindən M. Kaldinanın, V. Ryabuxinanın, Y. Karopanın adlarını çəkmək olar.

Hazırda, tipologiya kimi, Enneaqram üç əsas səbəbə görə elmi ictimaiyyətdə elmi əsaslı kimi tanınmır. Bu səbəblər aşağıdakılardır:

1) Enneaqramın terminoloji aparatı hazırlanmamışdır və unifikasiya edilməmişdir;

2) İnsanın Enneatipini təyin etmək üçün aydın alətlər dəsti yoxdur;

3) Enneagramın yaranma tarixi qədim, lakin müəyyən dərəcədə gizli (okkult) köklərə malikdir.

Sonuncu səbəb ilə heç nə edə bilmiriksə, ilk iki səbəb müəyyən elmi maraq kəsb edir, çünki onlar Enneaqramı qəbul və tətbiq edən psixoloqlar, filosoflar və sosioloqlar üçün Enneaqramı elmi bazaya gətirərək əsaslandırmaq və təkmilləşdirmək üçün bir növ çağırışdır.

*Pedaqoji fəaliyyətdə Enneagram modeli.*

Cəmiyyətin dinamik inkişafı təlim prosesinin iştirakçıları qarşısında yeni tələblər qoyur: yüksək təfəkkür və davranış çevikliyi, dözümlülük, böyük həcmli məlumatlarla işləmək, tanış olmayan situasiyadan çıxış yolu tapmaq, düzgün qərarlar qəbul etmək bacarığı, məsuliyyətli olmaq, təşkilatçılıq və liderlik keyfiyyətlərinə malik olmaq. Bundan əlavə, təhsilin "peşəkarlaşması" deyilən bir proses də baş verir ki, bu da insanın həyatı boyu öyrənməyə və yenidən öyrənməyə hazır olmasını nəzərdə tutur. Bununla əlaqədar olaraq, təlim proqramları daim dəyişdirilir, məlumat axınının sürəti və sıxlığı artır, qeyri-müəyyən vəziyyətlərin sayı artır ki, bu da şagird və tələbələrin yüklənməsinə, stress reaksiyalarının kəskinləşməsinə, zehni fəaliyyətin funksiyalarının zəifləməsinə səbəb olur. Belə şəraitdə öz daxili imkanlarını bilmək, potensialını üzə çıxarmaq və bunun əsasında düzgün peşə seçimi edərək mövcud qabiliyyətləri inkişaf etdirmək son dərəcədə zəruri olur.

Pedaqoqlar öz pedaqoji fəaliyyətlərində tez-tez elə vəziyyətlə qarşılaşırlar ki, şagirdlərin şəxsi xüsusiyyətləri onlara universal effektiv və etibarlı yanaşma tapmaq, həmçinin onlara gələcək peşəsini seçməkdə kömək etmək çətin olur. Şüuraltı motivasiyanın psixoloji modeli olan və insanın fərdi inkişafına yönəlmiş Enneagram (və ya şəxsiyyətin Enneagramı) bu problemin həllinə kömək edə bilər.

Enneagram modeli çərçivəsində əsas olan Enneatip konsepsiyasıdır, yəni insanın ətraf mühitlə dərin daxili qarşılıqlı əlaqə strategiyası. R. Tallon və M. Sikora qeyd edirlər ki, "strategiyalar daxili motivasiyaları təsvir edir və müəyyən şəxsiyyət tipinin bütün nümayəndələrinə şamil edilir. Strategiyalar şəxsiyyət tipini müəyyən edən hesab edilə bilər". [4, s.11] Hər bir insanın bu və ya digər davranış strategiyasına çıxışı var, lakin avtomatik reaksiyalar səviyyəsində o, adətən, indiki anda problemlərini həll etmək üçün ən əlverişli olanı və uşaqlıqda ən yaxşı işləyən strategiyaya üstünlük verir. Beləliklə, R.Tallon və M.Sikoranın fikrincə, Enneatip erkən uşaqlıq dövründə formalaşmağa başlayır və konkret əməliyyatlar mərhələsində (7-11 yaş) artıq nəzərə çarpır. Bu məlumatlara əsaslanaraq, biz artıq ibtidai məktəbdə uşağın şəxsiyyət tipinin parlaq təzahürünü müşahidə edə bilərik. Yaşla əlaqədar bəzi xarakter əlamətləri dəyişə bilər, daha çox və ya daha az ifadə edilə bilər, lakin xarakterin əsas nüvəsi dəyişmir. Fikrimizcə, buna görə də məktəbdə Enneagramın əsas rolu şəxsiyyət xüsusiyyətlərini müəyyən etmək və onlara əsaslanaraq şagirdin Enneatipinin müəyyən edilməsidir. Belə testlərin nəticələri ilə tanış olduqdan və öz xarakter tipini başa düşdükdən sonra şagird gələcək peşəkar və karyera perspektivlərini nəzərdən keçirərək gələcək peşəsini seçməkdə daha balanslı olar.

Enneatiplərin müəyyən edilməsi sayəsində valideynlər və pedaqoqlar onlardan çox fərqli olan uşaqları başa düşməyi öyrənəcək, heç bir tipin digərindən daha "yaxşı" və ya "pis" olmadığını qəbul edəcək, uşaqlara özlərinin və başqalarının istedadlarını tanımaq və qiymətləndirmək yollarını göstərəcək, övladı gözləntilərini doğrultmayanda uğursuzluq hissi keçirənlərə dəstək göstərəcəklər. Müəllimin əlində Enneagram təkcə uşaqlarla dərsdənkənar iş aləti deyil, həm də valideynlərə uşaqları ilə əvvəllər onlara əhəmiyyət verə bilmədiyi fərqləri görməyə və qəbul etməyə kömək edə bilər. Bizi maraqlandıran peşə seçimi mövzusuna gəldikdə isə, Enneagrama əsaslanaraq, Enneatipinin müəyyənləşdirilməsi məktəblilərə peşə seçimi və gələcəkdə uğurlu karyera qurmaqla bağlı qərar verməyə kömək edə bilər.

Karyera haqqında müasir təsəvvürlər sosial həyatın bir hadisəsi kimi fəlsəfi, iqtisadi, sosioloji, pedaqoji və psixoloji yanaşmalar çərçivəsində inkişaf etdirilir və geniş şəkildə təqdim olunur. Psixologiyada bu fenomenin məzmununun açıqlanması, bir tərəfdən, şəxsiyyətin inkişafının peşəkar məkanı və özünü həyatda təsdiqləmə forması, digər tərəfdən isə peşəkar həyat yolu, peşəkar müqəddəratını təyinetmə kimi qəbul edilir.

Rus psixoloqu E.A. Klimov "karyera" anlayışını fərdin peşəkar müqəddəratını təyin etməsi kontekstində istifadə edir və onun uğurlu olmasını peşəkar özünütəyinetmə ilə əlaqələndirir. Beləliklə, E.A. Klimova görə "karyera vəzifələr vasitəsilə yüksəliş kimi deyil, seçilən peşənin ustalıq səviyyələri və fəaliyyətin nəticələrinin xarakteri ilə yüksəliş" kimi başa düşülür. [7, c.98]

Ümumiləşdirərək deyə bilərik ki, "peşəkar karyera" aşağıdakı kimi qəbul edilə bilər: subyektin əmək yolunun müəyyən mərhələlərində peşəkar fəaliyyət növü; həyatı boyu peşələrin, tutduğu yerlərin və vəzifələrin ardıcıllığı; həyat tərzi ilə birləşən və həyatın müxtəlif sahələrini əhatə edən fəaliyyət növü; peşə təcrübəsi; peşəkar yolda baş verən inkişaf. Eyni zamanda, karyera quruculuğu ilə məşğul olan insan cəmiyyət tərəfindən şəxsi və peşəkar potensialının reallaşdırılmasına yönəlmiş, öz səyləri, bacarıqları və peşəkarlığı hesabına peşəkar uğura, müəyyən statusa can atan şəxs hesab olunur.

Beləliklə, psixoloji yanaşma nöqteyi-nəzərindən karyera peşəkar fəaliyyətdə şəxsiyyətin dəyişməsi və inkişafı ilə əlaqələndirilir. Bir insanın peşəkar inkişafı əsasən yaxın və son məqsədlərin dərk edilməsi dərəcəsi ilə müəyyən edilir. Gələcəyə istiqamətlənmə, sosial dəyərləri dərk etmək, özünə və başqalarına münasibətdə daxili mövqeyini təsbit etmək gənclərin həyat məqsədlərini təyin etməsi problemini aktuallaşdırır ki, bu da öz növbəsində, karyeranın ayrı-ayrı komponentləri kimi çıxış edir.

XX əsrin 70-ci illərindən başlayaraq Enneagram haqqında məlumatlar və biliklər əvvəlcə Amerikada, sonra isə bütün dünyada sürətlə yayılmağa başladı. Bu gün Enneagram modeli psixoterapiya və kouçinq, şəxsi inkişaf, özünü tanıma, biznes konsaltinqi, sosiologiya, təhsil və hətta kino sahəsində uğurla istifadə olunur.

Enneaqram mövzusuna dair apardığımız araşdırmalar göstərdi ki, İnternetdə bu haqda material həddindən artıq çoxdur. Lakin bu materiallar əsasən Enneaqramın mahiyyətini, yaranma tarixini, Enneatiplərin tərifini və çoxlu sayda müxtəlif Enneaqram sorğularını əhatə edir, Enneaqramla bağlı saysız-hesabsız ödənişli onlayn təlimlər təqdim edir. Enneaqramın tətbiqi ilə bağlı bir araşdırma keçirdik və əlbəttə ki, ilk növbədə, MDB-yə daxil olan 10 respublikaya nəzər saldıq. Qeyd edək ki, yalnız Rusiya və Belarusda Enneaqramın tətbiqinə və istifadəsinə dair məlumat əldə etdik. Bunu o biri dövlətlərdə ya Enneaqramın geniş və ya ümumiyyətlə, tətbiq olunmaması ilə, və ya İnternet məkanında bu haqda bölüşməmələri ilə izah edirik.

***Rusiyada*** Enneagram yalnız maraqlı olan təşkilatlar tərəfindən xüsusi forumlarda və seminarlarda tədris olunur. Hal-hazırda, Enneagram haqqında rus dilində az miqdarda ədəbiyyat var, lakin bu mövzuda kitabların aktiv tərcüməsi tendensiyaları var.

Rusiyada Enneaqram sahəsində çalışan Marina Kaldina 2008-ci ildə Don Riso və Rass Hadson ilə Enneagram İnstitutu (ABŞ) tərəfindən Enneagram Təlimçisi kimi sertifikatlaşdırılmış və Helen Palmer və David Daniels, Ketrin və Devid Fovre, Tom Kondon və Mario Sikora kimi beynəlxalq səviyyədə tanınmış Enneagram təlimçilərində təlim keçmişdir. Peşəkar kouç, hüquqşünas və arbitrdir. O, Rusiyada 2007-ci ildə Enneagram üzrə müntəzəm seminarlar keçirməyə başlayan, Rusiyada Enneagrama həsr olunmuş ilk rusdilli saytı – www.etcen.ru (indi - www.enneagramma.ru) yaradanlardan biridir. Moskvada Enneagram Klubda daimi internet saytı yaratmışdır. Don Riso və Rass Hadsonun "Enneagramın müdrikliyi", "Enneaqrama görə transformasiyalar" və "Şəxsiyyət tipinizi müəyyənləşdirmək", Mario Sikora və Robert Tallonun "Fəaliyyətdə zehinlilik" kitablarını rus dilinə tərcümə etmiş və Rusiyada nəşr etdirmişdir. M. Kaldina həm də "Şəxsiyyətin evolyusiyası" kitabının müəllifidir. O, Beynəlxalq Enneagram Assosiasiyasının (IEA) akkreditə olunmuş peşəkar üzvüdür.

Burada Eqor Karopa və İrina Karopanı da qeyd edək. Onlar bütün Rusiyada treninqlər keçirir, Rusiyada Enneagram və Transformasiya kouçinqi İnstitutunun həmtəsisçiləridir.

***Belarusda*** Enneagram əsasən marketinqdə istifadə olunur. Lakin Enneaqram haqqında məlumatlar bəzi ali təhsil müəssisələrində təqdim edilir və Enneaqram diplom işlərinin mövzusuna çevrilir. Belarusda Enneagramdan istifadə etməklə aparılan üçillik müşahidənin nəticələri göstərdi ki, istənilən bazarın inkişafı vasitəsi ilə şirkətlər münasibətlərin daha mürəkkəb səviyyəsinə çatır və şirkət əməkdaşları öz karyeralarında daha uğurlu olurlar.

1997-ci ildə Helena Makani ilk dəfə Enneagramı ***Danimarkaya*** gətirdi və bu modelin Skandinaviyada inkişafına təşəbbüs göstərdi. O, həmçinin Enneagram haqqında Danimarkada bestseller olan "Enneaqram: şəxsi inkişaf yolunuz" adlı kitabın müəllifidir. Kitab 2009-cu ildə danimarka və ingilis dillərində, 2012-ci ildə rus dilində nəşr olunub. Helena Makani NLP, kouçinq və alternativ müalicə üzrə beynəlxalq səviyyədə tanınan təlimçidir.

1990-cı ildən Danimarka, Norveç, Kipr və Belarusda bir sıra təlim mərkəzləri yaradıb. H. Makani həm də Beynəlxalq kouç və təlimçilər Assosiasiyasının (ICTA) təsisçisidir.

1993-cü ildən H. Makani NLP, kouçinq və Enneagram üzrə seminarlar və peşəkar təlim proqramları keçirir. O, Avropanın ən təcrübəli Enneagram və NLP təlimçilərindəndir.

2014-cü ilin aprel ayında Enneagram Beynəlxalq Assosiasiyasının konfransında Enneagram Beynəlxalq Assosiasiyasının ***Portuqaliya*** bölməsinin vitse-prezidenti, Enneagram təlimçisi, kouç və biznes təlimçisi Eduardo Torgal tərəfindən şəxsi transformasiya prosesinə başqa bir yanaşma təqdim edilmişdir. Bu yanaşma praktik cəhətdən müxtəlif tətbiqlərə malikdir və ən çox şirkətlərin və korporativ komandaların təşkilati inkişafı üçün istifadə olunur.

Enneagram digər ölkələrdə də, məsələn, ***Kanada, Böyük Britaniya, Hollandiya, Belçika, İtaliya, İspaniya, Çin, Koreyada*** olduqca yaxşı tanınır. Məs., İngiltərədən olan Anad Subuti ABŞ, Kanada, Böyük Britaniya, Avropa, Türkiyə, Rusiya və digər ölkələrdə təlimlər keçirir.

Qərb ölkələrində Enneaqram bir çox məktəb və universitetlərdə tədris olunur, şəxsiyyət və biznes psixologiyasında geniş istifadə olunur. *Nike, Apple, Mercedes, Disney, Pixar, Philips, American Airlines, L'Oreal və Nestle* kimi xarici şirkətlərin birgə marketinq sahəsində təcrübəsinə əsaslanaraq, onların Enneagramdan alət kimi geniş istifadə etdiklərini iddia etmək olar. Enneaqram işə götürmək, effektiv danışıqlar aparmaq, komandada rahat atmosfer yaratmaq, nəticədə özləri üçün tamamilə yeni olan, inkişafı qeyri-mümkün və ya çətin olacaq bazarlara "fırtına" kimi daxil olmaq imkanı verir.

Əlbəttə ki, hazırda Enneaqram modelinin ən çox istifadə olunduğu ölkə ***ABŞ-dır***. Bu model artıq biznesin qurulması və təşviqində ən böyük korporasiyalar tərəfindən uğurla istifadə olunur. Məsələn, *Avon Products, Boeing Corporation, The DuPont Company, General Motors, Alitalia Airlines, KLM Airlines, Kodak, Hewlett Packard, Toyota, Procter & Gamble, Reebok, Motorola, Sony, American Mətbuat İnstitutu, Coca Cola (Meksika), Hewlett Packard, Sony, Toyota, General Motors, Alitalia Airlines, Coca Cola, Avon Products, Boeing Corporation, The DuPont Company, Kodak, Amerika Mətbuat İnstitutu* və s. kimi bir çox digər qlobal şirkətləri qeyd edə bilərik. Hətta teleseriallların ssenariləri belə bu tipologiyaya uyğun olaraq son dərəcə dəqiqliklə yazılır. Eyni zamanda, bu gün Enneaqram ABŞ və Avropada idmançılar, liderlər, iş adamları və dövlət məmurları üçün təlim məktəblərində geniş istifadə olunur: siyasətçi imicinin formalaşmasında, qabaqcıl siyasi texnologiyalarda, biznesdə, hüquq-mühafizə orqanlarının işində, hökumətin və ictimai təşkilatların fəaliyyətində, peşəkar və şəxsi inkişafda və s.

ABŞ-da Enneagram haqqında dissertasiyalar yazılır, biznes məktəblərində və universitetlərdə Enneaqramdan hazırlıq kursu keçirilir. Həmçinin, işə götürmədə, komanda yığıb qurmaqda, ən yüksək maaş alan işçilərlə işləməkdə, iri və orta şirkətlər və dövlət təşkilatları tərəfindən bu və ya başqa şəkildə istifadə olunur. ABŞ-ın bir sıra məktəblərində Enneagram haqqında bilik təkcə müəllimlərdən deyil, həm də məktəbdə təhsil alan uşaqların valideynlərindən tələb olunur. Kaliforniyada, demək olar ki, hər kəs öz Enneagram növünü bilir.

***Yaponiyada*** Enneagram modeli həm siyasətdə, biznesdə, rəhbər vəzifələrdə şəxsi məqsədlərə nail olmaq üçün, həm də komanda işini optimallaşdırmaq, peşəkar kadrları seçmək və idarə etmək üçün eyni dərəcədə uğurla istifadə olunur.

***Türkiyədə*** Enneaqram modeli bir çox özəl mərkəzlər tərəfindən məşqlər, treninqlər, təlimlər şəklində həyata keçirilir.

Burada biz Enneaqram modelinin təbliği və tətbiqi ilə məşğul olan bir neçə beynəlxalq mərkəz və institutların adını çəkmək istərdik. Bunlar aşağıdakılardır:

1. Beynəlxalq Təlimçilər və Məşqçilər Assosiasiyası – ICTA, təsisçisi H. Makani.
2. Korn Ferry şirkəti – kadrların idarə edilməsi və təşkilati konsaltinq sahəsində konsaltinq xidmətləri göstərən tanınmış beynəlxalq şirkətdir. Korn Ferry şirkəti, həmçinin, Hay Group və Futurestep bölmələri vasitəsilə xidmət göstərir, təxminən 7000 peşəkar işçisi var.
3. Beynəlxalq Enneagram Assosiasiyası (IEA).
4. "Biznesdə Enneagram" (EİBN) – biznesdə peşəkar məsləhətçiləri, təlimçiləri və məşqçiləri əhatə edən qlobal şəbəkədir. Şəbəkənin 20-dən çox ölkədən olan 72 üzvü vardır. Yerli və qlobal miqyasda xidmətlər təqdim edir.

Bu gün Enneagram Kopenhagendən Keyptauna, Tokiodan Mexikoya qədər bütün planetdə irəliləyir, biznes təhsilində, kouçinq və psixoterapiyada istifadə olunur. Enneagram insanın şəxsi transformasiyasına və inkişafına yönəlmiş dərin, şüuraltı motivasiyasının ayrılmaz modelidir. O, insan şəxsiyyətinin strukturunu, uyğunlaşma strategiyalarını və müdafiə mexanizmlərini öyrənir. Bu modelə görə, hər bir insanın dəqiq müəyyən edilmiş şəxsiyyət quruluşu, özünəməxsus avtomatik reaksiyaları və bir növ "proqramlaşdırılmış" davranışı var və buna görə də o, onda açıq-aydın özünü büruzə verən dominant şəxsiyyət növünə – Enneatipə aiddir.

Bizim üçün bu modeldə ən önəmlisi odur ki, o, yalnız şəxsiyyətin tipini müəyyən etmək üsulu deyil, həm də inkişaf modelidir. Enneaqram, ilk növbədə, şəxsi inkişaf üçün, xarakterinizin güclü və zəif tərəflərini bilmək üçün lazımdır. Amma o həm də gənclərin peşəkar oriyentasiyasında, karyera yüksəlişində bir vasitə kimi istifadə oluna bilər. Yuxarıda deyilənlərdən göründüyü kimi, bütün bu ölkələrdə Enne-

agram biznesdə tətbiq olunur, xüsusən də iş məmnunluğunu artıraraq dəyərli işçilərin saxlanmasında, işçilərin seçilməsində köməklik göstərir; münaqişələrin idarə edilməsi üzrə işi təkmilləşdirməkdə, uğurlu danışıqlar aparmaqda və s. istifadə olunur.

Beləliklə, deyə bilərik ki, Enneagram bilavasitə gələcək peşənizi seçmək üçün test və ya sorğu deyil. Lakin Enneatypi bilmək sizə gələcəkdə təkcə maliyyə dividendləri və karyera yüksəlişi gətirən model deyil. O, həm də seçilmiş peşədən məmnunluq hissi gətirəcək daha uyğun olan fəaliyyət sahəsini seçməkdə faydalı ola bilər. Eyni zamanda, qeyd etmək lazımdır ki, Enneagram peşə seçimində həlledici amil ola bilməz, o, yalnız bu işdə vasitə kimi çıxış edir. Enneagram aşağıdakıları müəyyən etməyə imkan verir:

1. İnsanın meylli olduğu fəaliyyətin xarakterini;
2. İnsanın gizli potensialını;
3. Hər bir Enneatip üçün fərdi inkişaf yolunu.

Qloballaşan dünyada fərdlərin digər şəxslərlə rəqabətə davamlı olması üçün, sonradan isə uğurlu karyera qurması üçün doğru peşədə çalışması çox vacibdir. Gördüyümüz iş bizim birbaşa həyatımıza, fəaliyyətimizə təsir edir. Buna görə də gələcək işçilərin daha səmərəli və motivasiyalı işləməsi üçün doğru peşə seçmələri olduqca əhəmiyyətlidir.

82 saylı ümumtəhsil məktəbi “Partadan iş masasına” adlı layihədə iştirak etmişdir (sentyabr 2021-fevral 2022). Layihəyə aid “Təhsildə inkişaf və innovasiyalar üzrə qrantların məbləği və ayrılması şərtləri, o cümlədən vəsaitlərin verilmə prosedurları, monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər”ə 2 nömrəli əlavədə qeyd olunur ki, bir neçə mərhələdən ibarət olan layihənin “ən vacib məsələlərindən biri peşənin tələb etdiyi şəxsiyyət tipi ilə tələblərin karyera dəyərləri arasında oxşar və fərqli cəhətləri araşdırmaqdır. Yəni bu şəxsiyyət tipli şagird seçdiyi peşədə nə qədər uğurlu ola bilər.” Enneaqram modelinin isə peşə seçimində şagirdlərə nə dərəcədə kömək etdiyini bizim bu məktəbdə apardığımız monitorinqin nəticələri göstərəcək.

**Problemin aktuallığı.** Pedaqoji fəaliyyətin çərçivəsində pedaqoqlar bəzən şagirdlərə universal səmərəli və etibarlı yanaşma tapa bilmirlər, bu da müəllimin nüfuzuna və onun şəxsi peşəkar səriştəsinə fayda gətirmir. Enneagram (və ya şəxsiyyətin Enneagramı) şüuraltı motivasiyasının psixoloji modelidir. O, bu problemin həllinə kömək edə bilər, çünki onun əsasında insanın şəxsi inkişafının və şəxsiyyət strukturunun doqquz tipini – Enneatipini müəyyən etmək mümkündür.

**Problemin elmi yeniliyi.** Başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda Enneaqram modeli biznesdə, psixologiya və pedaqogikada, demək olar ki, heç tətbiq olunmayır. Lakin bir sıra xarici təlimçilər özəl mərkəzlərin dəvəti ilə respublikada təlimlər keçirir. Bu məqalə məhz Enneaqram modeli və onun hansı sahələrdə istifadə edilə bilməsinə həsr olunub.

**Problemin praktik əhəmiyyəti**. Enneagram modelinin xüsusi olaraq pedaqoji fəaliyyət çərçivəsində tətbiqini nəzərə alsaq, deyə bilərik ki, müəllim və məktəb psixoloqunun məktəblilərin Enneatipi haqqında bilikləri onlarla ümumi dil tapmağa, mənfi xarakter vərdişlərini aradan qaldırmağa kömək edə bilər; uşaqların xarakter xüsusiyyətlərindən istifadə edərək, sinifdə müsbət atmosfer yaratmaq, münaqişələrdən qaçmaq mümkün olar. Şagirdlər isə öz xarakter tipini – Enneatipini başa düşdükdən sonra gələcək peşəkar və karyera perspektivlərini nəzərdən keçirərək özünə uyğun peşəni seçməkdə daha uğurlu olarlar.

**Ədəbiyyat:**


1. Гингер, А., Гингер, С. Гештальт-терапия контакта. – СПб.: Специальная Литература, 1999. – 287 с.
2. Наранхо, К. Изменим образование, чтобы изменить мир. – М.: Независимая фирма «Класс», 2013. – 400 с.
3. Макани, Х.К. Эннеаграмма: Ваш путь личностного развития, пересмотренное и дополненное. – М.: Ганга, 2012.– 288 с.
4. Таллон, Р., Сикора, М. Осознанность в действии: эннеаграмма, коучинг и развитие эмоционального интеллекта. – М.: Ориенталия, 2015. – 432 с.
5. Рисо, Д. Определение Вашего Типа Личности: важное введение в теорию Эннеаграммы, пересмотренное и расширенное. – М., 2015. – С. 17.
6. Калдина, М. Эннеаграмма для HR. Ежемесячное приложение к журналу Human Resources. Практикум No7, июль – 2007. – С. 68.

7. Климов, Е.А. Психологическая подготовка к профессии, специальности. //«Энциклопедия профессионального образования»/ Под ред. С.Я. Батышева. – М.: Ассоциация «Профессиональное образование» РАО, – 1999. Т.2. – С.432.

**E-mail:** ema.umudova@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **E.M. Kərimova**,
*ped.ü.fəls.dok.* **L.H. İmanova**
**Redaksiyaya daxil olub:** 28.03.2022